# Kazus

Cənab M. (ərizəçi), qrup halında hücum etməklə bilərəkdən xəsarət yetirmədə ittiham olunurdu. Hadisəyerindədindirilənlərinheç biri iddia etməmişdi ki, ərizəçinin zərərçəkənə hücum etdiyini görüblər, amma orada olanlardan biri (T) iki gün sonra polisə ifadəsində hücum edənin ərizəçi olduğunu bildirmişdi. T. yeganə şahid idi ki, hücum zamanı zərbə endirildiyini gördüyünü iddia edirdi və onun başqa ifadələrlə təsdiqlənməyən ifadəsi ərizəçiyə qarşı yeganə olmasa da, hər halda həlledici əhəmiyyət daşıyan dəlil idi. Ərizəçi onun ifadəsi əleyhinə ifadə verə biləcək şahid çağırmaq imkanına malik deyildi. Məhkəmə araşdırmasında ittiham tərəfi T-nin ifadəsinin oxunmasına icazə verilməsi üçün vəsatət qaldırdı və belə əsas gətirdi ki, o, məhkəməyə gəlməkdən bərk qorxub. İşə baxan hakim vəsatəti təmin etdi və bu qərarını belə əsaslandırdı ki, T-nin və bir polis əməkdaşının verdiyi ifadəyə əsasən, T-ni hədələyiblər (hərçənd ki, onu hədələyən ərizəçi olmayıb) və xüsusi tədbirlərin tətbiqi, məsələn, arakəsmə arxasından ifadə verməsi onun qorxularını azalda bilməyəcək. T-nin qorxusunun obyektiv əsaslarının olub-olmadığını müəyyənləşdirmək üçün müvafiq araşdırmalar aparılmış və işə baxan hakim xüsusi tədbirlərin tətbiqinin onun qorxusunu azalda bilməyəcəyinə əmin olmuşdu. Beləliklə, T-nin şahid ifadəsi onun öz iştirakı olmadan məhkəmədə oxundu. Ərizəçi də ifadə verdi. Ərizəçi məhkum edildi və apellyasiya məhkəməsi ittiham hökmünü qüvvədə saxladı.

Sual: Qeyd edilən kazusdaKonvensiyanın 6-cı maddəsinin pozuntusuna yol verilmişdirmi? Fikrinizi əsaslandırın.

*Hazırladı: Günel Sevdimaliyeva*